# Bilik Fondu ilə Təhsil Problemləri İnstitutu arasında memorandum imzalanıb

Yanvarın 14-də Bilik Fondu və Təhsil Problemləri İnstitutu əməkdaşlarının görüşü olub. Görüşdə Bilik Fondunun icraçı direktoru Oktay Səmədov rəhbərlik etdiyi qurumun maarifləndirmə istiqamətində həyata keçirdiyi layihələrdən, Azərbaycan təhsil sistemi strukturunun təkmilləşdirilməsi və təhsildə idarəetmənin səmərəliliyinin yüksəldilməsi sahəsində aparılan islahatlardan danışıb.





Tədbirdə təhsil işçilərinin inkişaf etmiş qabaqcıl ölkələrin təhsil sistemində qazanılmış yeniliklərlə tanış edilməsi barədə fikirlər səslənib. Bu baxımdan, mütəmadi olaraq aktual problemlərin tədqiqi və təhlili ilə bağlı elmi konfrans, seminar, “dəyirmi masa” və disputların təşkilinin vacibliyi vurğulanıb.

TPİ-nin direktoru Qulu Novruzov təhsil sahəsində maddi-texniki və kadr potensialından istifadənin səmərəliliyinin artırılması yollarından danışıb, milli mənəvi dəyərlərin təbliği istiqamətində birgə fəaliyyət göstərilməsinin vacibliyini vurğulayıb.

Görüşdə Bilik Fondu ilə Təhsil Problemləri İnstitutu arasında ölkə əhalisinin maarifləndirilməsi, milli təhsil konsepsiyasının müddəalarının yerinə yetirilməsi məqsədilə anlaşma memorandumu imzalanıb.

**Niyazi RƏHİMOV,**
*“Azərbaycan müəllimi”*
**Fotolar Rəşad ZİYADOVUNDUR**